**"2023-cü ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında" Yevlax Şəhər İcra Hakimiyyəti Başçısının**

# HESABATI

## SOSİAL-İQTİSADİ GÖSTƏRİCİLƏR

- Yevlax rayonu 05 fevral 1935-ci ildə təşkil olunmuşdur. Sahəsi 1,47 min kv.km-dir. Ərazi vahidlərinin sayı 50. O cümlədən: 1 şəhər, 3 qəsəbə, 46 kənd, inzibati ərazi dairələrinin sayı 20. O cümlədən: 1 sahə inzibati ərazi dairəsi, 1 qəsəbə inzibati ərazi dairəsi, 19 kənd inzibati ərazi dairəsi. Mərkəzi Yevlax şəhəridir.

- 01 yanvar 2024-cü il tarixə əhalinin sayı 129246 nəfərdir. 1 $km^2$ düşən əhalinin sayı 87 nəfərdir. O cümlədən: şəhər əhalisinin sayı 72490 nəfər, kənd əhalisinin sayı 56756 nəfərdir. Kişilərin sayı 63062 nəfər, qadınların sayı 66184 nəfərdir. Doğulanların sayı 1772 nəfər, ölənlərin sayı 841 nəfərdir. Təbii artım 931 nəfərdir.

- 01 yanvar 2024-ci il tarixə rayonun ümumi torpaq fondu 153734,0 hektardır. O cümlədən: 92641,0 hektar kənd təsərrüfatına yararlı torpaqlar, 61093,0 hektar istifadə olunmayan torpaqlardır.

- Əmək qabiliyyətli yaşadək əhalinin sayı 31794 nəfər, əmək qabiliyyətli yaşda əhalinin sayı 85561 nəfər, əmək qabiliyyətli yaşdan yuxarı əhalinin sayı 11891 nəfərdir.

- Məşğul əhalinin sayı 55161 nəfər, muzdla işləyənlərin sayı 12864 nəfərdir.

- 01 yanvar 2024-ci il tarixə pensiyaçıların sayı 12921, social müavinət alanların sayı 8876, təqaüd alanların sayı isə 5528 nəfər olmuşdur.

## ÜMUMDAXİLİ MƏHSUL İSTEHSALI

- 2023-cü ildə ümumdaxili məhsulun həcmi 489,2 milyon manat olmuşdur. Bu da 2022-ci ildə olduğundan 63,6 milyon manat və yaxud 14,9 faiz çoxdur.

- Ümumdaxili məhsulun 56,3 faizi istehsal 43,7 faizi isə xidmətdir. Keçən il istehsal 188,0 milyon manat, xidmət isə 169,0 milyon manat təşkil etmişdir.

- Ümumdaxili məhsulun 26,2 milyon manatını sənaye, 157,0 milyon manatını kənd təsərrüfatı 47,4 milyon manatını tikinti, 168,0 milyon manatını ticarət, 8,6 milyon manatını nəqliyyat, 2,54 milyon manatını rabitə və digər xidmətləri isə 79,2 milyon manatını təşkil etmişdir.



- 2023-ci ildə (adambaşına) hər nəfərə 3786,5 manat ümumdaxili məhsul istehsal olunmuşdur ki, bu da əvvəlki illə müqayisədə 472 manat və yaxud 14,2 faiz çoxdur.

## ƏHALİNİN PUL GƏLİRLƏRİ

- 2023-cü ildə orta aylıq əmək haqqı 597,9 manat olmuşdur. Əvvəlki ilə nisbətən 54,7 manat və ya 10 faiz artmışdır.

## BÜDCƏ, MALİYYƏ, BANK, SOSİAL MÜDAFİƏ VƏ MƏŞĞULLUQ SAHƏSİ ÜZRƏ

- 2023-cü ildə şəhərin büdcə gəlirləri 8 milyon 374 min 53 manat, büdcə xərcləri 7 milyon 529 min 939 manat olmuşdur.
- Rayonda 4 bank filialı fəaliyyət göstərir.
- 2023-cü ildə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 110 sahibkara 7882,5 min manat güzəştli kredit verilmişdir. Nəticədə 63 yeni iş yeri açılmışdır.
- 2023-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər şöbəsi tərəfindən 12349 nəfər pensiya ilə, 14404 nəfər isə müavinət və təqaüd ilə təmin olunmuşdur.

## TİCARƏT VƏ XİDMƏT SAHƏSİ ÜZRƏ

- 2023-cü ildə pərakəndə əmtəə dövriyyəsi və pullu xidmətlərinin ümumi həcmi 168,0 milyon manat olmuşdur. Bu da 2022-ci illə müqayisədə faktiki qiymətlə 5,2 faiz müqayisəli qiymətlə isə 0,8 milyon manat çox olmuşdur.
- Hesabat ilində 23 ticarət və xidmət obyekti tikilib istifadəyə verilmişdir.
- Yeni tikilən ticarət və xidmət obyektləri müasir dizaynla tikilərək şəhərin ümumi görkəminə uyğunlaşdırılmışdır. Hazırda rayonda mindən çox ticarət, iaşə və xidmət obyekti əhaliyə müxtəlif xidmətlər göstərir.

## NƏQLİYYAT SAHƏSİ

- 2023-cü ildə rayonda fəaliyyət göstərən nəqliyyat müəssisələri üzrə göstərilən xidmətdən əldə olunan gəlirin həcmi (fiziki şəxslər də daxil olmaqla) 8699,4 min manat olmuşdur ki, bu da əvvəlki il ilə müqayisədə 2,3 faiz çoxdur.
- 2023-cü ildə rayon üzrə avtomobil nəqliyyatı ilə (fiziki şəxslər də daxil olmaqla) 1640 min ton yük daşınmışdır ki, bu da ötən il ilə müqayisədə 9,6 faiz çoxdur. Bu nəqliyyat növündə yük dövriyyəsi ötən il ilə müqayisədə 9,6 faiz artaraq 144 min ton təşkil etmişdir.
- 2023-cü ilin hesabatı dövründə avtomobil nəqliyyatı ilə (fiziki şəxslər də daxil olmaqla) 22168 min nəfər sərnişin daşınmış və bu daşınmalar ötən il ilə müqayisədə 20,8 faiz artmışdır. Sərnişin dövriyyəsi ötən il ilə müqayisədə 14,2 faiz artaraq 72,3 min sərnişin-km təşkil etmişdir.
- 2024-cü ilin yanvarın 1-i vəziyyətinə rayonda bütün nəqliyyat növləri üzrə cəmi 13912 ədəd avtomobil mövcud olmuşdur. Onlardan 1549 ədədini (11,1 faiz) yük avtomobilləri, 72 ədədini (0,5 faiz) xüsusi təyinatlı avtomobillər, 302 ədədini (2,2 faiz) avtobus, 11938 ədədini isə (85,8 faiz) minik avtomobilləri təşkil edir. Şəxsi minik avtomobilləri cəmi avtomobillərin 85,1 faizini və ya 11838 ədəd olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 2,0 faiz çoxdur.

- Rayon üzrə avtomobillərin sayında əvvəlki il ilə müqayisədə 1,9 faiz artım müşahidə olunmuşdur. Ondan yük avtomobilləri üzrə 1,0 faiz, minik avtomobilləri üzrə 2,0 faiz çox, xüsusi təyinatlı avtomobillər üzrə isə 7,5 faiz çox olmuşdur.
- Hazırda hər 1000 nəfərə düşən avtomobillərin sayı 108 ədəd, hər 100 ailəyə düşən şəxsi minik avtomobillərin sayı isə 53 ədəddir. Keçən illə müqayisədə bu göstərici müvafiq olaraq 3,8 faiz və 10,4 faiz artmışdır.

## AQRAR SAHƏ ÜZRƏ

- Hesabat dövründə ümumilikdə 157,0 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da əvvəlki ilə nisbətən 4,2 faiz çoxdur.
- 2023-cü ilin məhsulu üçün rayonda 8607,7 hektar buğda, 7147,0 hektar arpa əkilmişdir. Buğda məhsulu 32020,7 ton olmaqla 37,2 sentner, arpa məhsulu 20661,4 ton olmaqla məhsuldarlıq 30,0 sentner olmuşdur. Taxıl istehsalı keçən ilə nisbətən 20,5 % artaraq 52682,1 ton olmuşdur. 16600 hektar təzə yonca bitkisi və digər kənd təsərrüfatı bitkiləri əkilib becərilmişdir.
- Rayonda 2023-cü ildə 1888,3 hektarda pambıq əkilmiş 6755,85 ton pambıq istehsal olunmuşdur və məhsuldarlıq 35,8 sentner olmuşdur.
- 2023-cü ildə 9650 kq barama tədarük olunmuşdur. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 3831,6 və ya 0,6 dəfə çoxdur.
- 2023-cü ildə iribuynuzlu mal-qaranın baş sayı 78756 olmuşdur. Bundan 32310 başı ana maldır. 2023-cü ildə 2022-ci ilə nisbətən xırda buynuzlu mal-qaranın sayı 4836 baş artaraq 184313 baş olmuşdur. Hesabat ilində quşların sayı 952 baş artaraq 456870 baş olmuşdur.
- 2023-cü ildə 9308,5 ton ət, 38192,9 ton süd, 18233 min ədəd yumurta və 357,6 ton yun ishehsal olunmuşdur. Keçən ilə nisbətən ət istehsalı 170,1 ton, süd istehsalı 130,5 ton, yumurta istehsalı 51 min ədəd, yun istehsalı 15,6 ton çox olmuşdur.
- Yevlax rayonunda 111 ədəd hidrotexniki qurğularda və 34 ədəd nasos stansiyalarında cari təmir işləri aparılmışdır. 1,93 km beton və asma nov kanallarda cari təmir işləri aparılmışdır. 132 ədəd subartezian quyularında cari təmir işləri aparılmışdır. 629,7 km uzunluğunda suvarma və kollektor-drenaj şəbəkələri mexanizmlərlə lildən təmizlənmişdir.
- Rayonun Aran bələdiyyəsinin ərazisində 2855,0 hektar əkin sahəsində Aqropark yaradılmışdır.
- Yevlax Pilot Aqroparkda əkin fəaliyyətinin həyata keçirilməsi məqsədilə ayrılmış torpaq sahələrinin koordinatları barədə məlumatlar layihəyə cəlb olunan sahibkarlıq subyektlərinə təqdim edilərək ilkin hazırlıq işlərinin başlanılması prosesinə start verilmişdir.
- “Sumqayıt Kimya Sənaye Parkı” MMC Yevlax Pilot Aqroparkın 2855 ha ərazisinin 1687,3 ha torpaq sahəsi üzrə 17 sahibkarlıq subyekti ilə 20 torpaq icarə müqaviləsi bağlanmışdır.
- “Sumqayıt Kimya Sənaye Parkı” MMC Yevlax Pilot Aqroparkın birinci mərhələ üzrə müvafiq infrastrukturun qurulması istiqamətində mobilizasiya və tikinti-quraşdırma işlərinə başlanılmışdır.
- İlkin hazırlıq işlərinin yekunlaşdırılması və əkin işlərinə başlanılması sahibkarların diqqətinə çatdırılmışdır.
- “Sumqayıt Kimya Sənaye Parkı” MMC Yevlax Pilot Aqroparkın ilk rezidenti olan “İSFA” MMC-yə ayrılmış ərazinin 10 hektarında düzgün aqrotexniki qulluq işləri (dərin çarpaz riperləmə, şumlama, diskləmə, malalama və s.) və müasir suvarma sistemlərinin tətbiqi ilə tez yetişən gilas, nektarin, şaftalı, alça və ərik bağları salınmışdır. “İSFA” MMC tərəfindən tingçilik təsərrüfatının yaradılması çərçivəsində müasir suvarma sistemlərinin tətbiqi ilə 8

hektar ərazidə 500 min ədəd tingin calaqaltısı əkilmiş, həmçinin ölkə daxili satışlarla yanaşı Gürcüstan (qoz) və Qırğızıstanla (gilas, nektarin, şaftalı) tinglərin satışı üzrə müqavilələr bağlanmışdır.

- Torpaq analizlərinin nəticələri və iqlim məlumatlarının təhlilinə uyğun olaraq əkiləcək bitkilər müəyyən olunmuş və həmin bitkilərin əkilməsi ilə bağlı parsellərin bölgüsü aparılmışdır.

- "Azərşəkər" MMC icarəyə verilmiş 2000,0 hektar əkin sahəsində fəaliyyətini davam etdirərək yeni infasturukturlar yaradır.

- 2023-cü il ərzində "Azərşəkər" MMC-də "Dastan Agro" MMC-də 10 KVA gücə malik 6,5 km elektrik xətti inşa edilmişdir. "Dastan Agro" MMC-də 3 əd 63 KVA, 1 əd 40 KVA KTM inşa olunmuş və 10 ədəd pivotların boru və elektrik xəttlərinin inşası həyata keçirilmişdir.

- 2023-cü ildə "Azərşəkər" MMC tərəfindən 391,4 hektar sahədə şəkər çuğunduru, 240 hektarda silos üçün qarğıdalı və 72,8 hektarda soya bitkisi əkilmişdir. Əkin sahələrindən 13010 ton şəkər çuğunduru, 5041 ton qarğıdalı və 28,9 ton soya məhsulu tədarük edilmişdir.

- 2023-cü ildə "Azərşəkər" və "Dastan Agro" MMC tərəfindən 2024-cü ilin məhsulu üçün 1738,4 hektarda buğda bitkisi və 321,9 hektar torpaq sahəsində isə arpa bitkisi əkini aparılmışdır.

## ƏRAZİ İDARƏETMƏ VƏ BƏLƏDİYYƏLƏRLƏ İŞ SAHƏSİ ÜZRƏ

- Rayonda 1 şəhər, 3 qəsəbə, 46 kənd yaşayış məntəqəsi vardır. 21 inzibati ərazi dairəsi, 29 bələdiyyə fəaliyyət göstərir.

- 01 yanvar 2024-cü il tarixə rayonun əhalisi 128 min 676 nəfər təşkil etmişdir. İl ərzində əhalinin sayı 303 nəfər artmışdır. Əhalinin keçən ilə nisbətən artımı əsasən doğuşların və şəhərə gələnlərin sayının artması hesabına olmuşdur. 2023-cü il ərzində 150 nikah bağlanmış və 1016 uşaq doğulmuşdur.

- Qeyd etmək lazımdır ki, Varvara, Salahlı və Nemətabad kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin, Hacıselli, Hürüuşağı, Qaraoğlan, Xanabad, Xaldan, Salahlı və Aşağı Bucaq bələdiyyələrinin fəaliyyəti tələb olunan səviyyədə deyildir. Bələdiyyə torpaqlarından səmərəli istifadə olunmasına lazımi nəzarət təmin edilməmişdir. Torpaq mülkiyyətçiləri, istifadəçilər ilə pambıq əkini aparılması üçün iş aparılmalıdır. Xüsusilə əkin yerlərindən başqa məqsədlər üçün istifadə olunması halları çoxdur. Əkin yerlərindən biçənək kimi istifadə olunması halları xüsusilə qeyd olunmalıdır. Bələdiyyələr tərəfindən vergi və rüsumların yığılması üçün lazımi iş aparılmır ki, bu da onların büdcəsinə mənfi təsir edir. Vətəndaşların problemlərinin öyrənilməsi və onların müraciətlərinə baxılması işi həmişə lazımi səviyyədə olmur. Ona görə də bəzən xırda məsələlərlə əlaqədar vətəndaşlar Şəhər İcra Hakimiyyətinə və ya yuxarı orqanlara müraciətlər edirlər. Odur ki, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklər və bələdiyyələr əhalini narahat edən problemləri ilə ciddi məşğul olmalı və öz işlərində dönüş yaratmalıdırlar. Vətəndaş-məmur münasibətlərində hər bir vəzifəli şəxs diqqətli olmalıdır.

- Şəhər İcra Hakimiyyəti Başçısı aparatı ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrlə, bələdiyyələrlə lazımi iş aparmalı, onların fəaliyyətinin daha da yaxşılaşdırılması üçün tələbkarlığı artırmalıdırlar.

- Rayonda 29 bələdiyyə vardır ki, onların əhatə etdiyi 52 saylı Yevlax seçki dairəsində 55 seçki məntəqəsi və 53 saylı Yevlax-Mingəçevir seçki dairəsində isə (Yevlax rayonu üzrə) 36 seçki məntəqəsi mövcuddur.

## TİKİNTİ-QURAŞDIRMA, ABADLIQ SAHƏSİ ÜZRƏ

- 2023-cü ildə sahəsi 4600 kv.metr olan Ulu öndər Heydər Əliyevin və Mustafa Kamal Atatürkün xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan və Türkiyə dostluğunu təcəssüm etdirən “Dostluq Parkı” tikilmişdir.
- Eyni zamanda sahəsi 3600 kv.metr olan Qanboy Quliyev küçəsi 3 və 4, Yeni Yevlax küçəsi 5, Zərdabi küçəsi 2, Nizami prospekti 44,46 və 48 nömrəli binaların həyətində “Abad məhəllə” salınmışdır. Abad məhəllədə 1535 kv.metr tamet piltə, 1039 p/metr beton səki daşları düzülmüş, 3 ədəd söhbətgah, 26 ədəd işıqlandırma dirəkləri, uşaq əyləncə və idman qurğuları quraşdırılmış, avtomobillər üçün parklanma yeri yaradılmış, planda ölçüsü 32 m x 16 m olan süni örtüklü idman meydançası salınmışdır.
- 2023-cü ildə Qanboy Quliyev küçəsi 3, 4 nömrəli Zərdabi küçəsi 2 nömrəli, Qarxunlu Əşrəf bəy küçəsi 2,4,9,10 və 11 nömrəli olmaqla ümumilikdə cəmi 8 çoxmənzilli yaşayış binalarının fasadları əsaslı təmir olunmuşdur.
- 15 iyun 2023-cü il tarixdə Yevlax rayonu ərazisində leysan yağışları ilə müşayiət olunan güclü külək əsməsi nəticəsində dam örtüyü uçaraq yararsız hala düşmüş 4 ictimai yaşayış binalarında təmir-tikinti və bərpa işləri həyata keçirilmiş, dam örtükləri yenilənmişdir.
- Heydər Əliyev prospektində səkilərdə əsaslı təmir işləri aparılmış, 8532 kv.metr tamet piltə örtüyü, 1862 p/metr beton səki daşları düzülmüş, 33 ədəd işıqlandırma dirəkləri quraşdırılmış, əraziyə 32 ədəd oturacaqlar, tullantılar üçün 18 ədəd qablar qoyulmuş, 3 ədəd uşaq əyləncə qurğuları quraşdırılaraq sakinlərin istifadəsinə verilmişdir.
- Cari ildə şəhərin 6 küçəsində ümumi uzunluğu 3,6 kilometr, sahəsi 25,4 min kv.metr asfalt örtüyü salınmış, yol kənarına, səkilərə 1624 p/metr beton səki daşları düzülmüşdür.
- 110/35/10 kV-luq “Yevlax Yarımstansiyası”nda əsaslı təmir işləri aparılmış, rayonun Aran qəsəbəsində yerləşən 35/10 kV-luq JBİ transformator yarımstansiyası yenidən qurulmuş stansiyanın gücü artırılmışdır.
- Heydər Əliyev Fondu tərəfindən Yevlax rayonu Azər Əzizov adına 360 yerlik Xanabad kənd tam orta məktəbi üçün yeni bina tikilərək şagirdlərin istifadəsinə verilmişdir.
- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Yevlax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrası ilə bağlı tədbirlər haqqında” 2019-cu il 13 noyabr tarixli Sərəncamına əsasən Yevlax şəhərinin su kanalizasiya sistemləri yenidən qurulması layihəsi çərçivəsində müasir tələblərə cavab verən yeni su-nasos stansiyası inşa edilmiş, şəhərə 2640 metr uzunluğunda 630-mm-lik yüksək təzyiqli polietilen borularla magistral su xətti çəkilmişdir. Layihənin sonrakı mərhələsində şəhərin digər küçələrinə magistral su xəttindən ayrı-ayrı xətlər çəkilməsi davam etdiriləcəkdir.

## İNFRASTRUKTURUN YAXŞILAŞDIRILMASI

### Elektrik enerjisi təchizatı

- Yevlax rayonunda şəhər və kənd yaşayış məntəqələri 24 saat fasiləsiz elektrik enerjisi ilə təmin olunur.
- Yevlax Elektrik Şəbəkəsi 6 ədəd 35/10/6 kV-luq yarımstansiyaya, 51 ədəd 10/6 kv-luq elektrik verilişi hava xəttinə, 7 ədəd 35 kV-luq elektrik verilişi hava xəttinə və 886 ədəd müxtəlif güclü transformator məntəqələrinə xidmət göstərir.
- 2023-cü il ərzində Yevlax Elektrik Şəbəkəsində 192 yeni sayğac quraşdırılmış, 861 ədəd sayğac dəyişdirilmiş, 1070 ədəd elektrik sayğacı yoxlanılmışdır.

- ❖ 110/35/10 kV-luq Yevlax yarımstansiyasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Rayonun Aran qəsəbəsində 35/10 kVA gücündə transformator yarımstansiyası yenidən qurulmuş və müasir avadanlıqlar ilə təchiz olunmuşdur.
- ❖ Yevlax rayonu Hürüuşağı kəndində əhalinin enerjiyə olan tələbatının yaxşılaşdırılması üçün 160 kVA gücündə yeni güc mərkəzi yaradılmış, 65 ədəd 0,4 kV-luq metal dayaq quraşdırılmış, 2,2 km ÖİN(SİP) kabel EVX çəkilmiş, 40 abonent yeni çəkilmiş SİP kabel h/x-nin üzərinə köçürülmüş, köhnə xətlər sökülmüşdür.
- ❖ Rayonun Havarlı kəndində 160kVA gücündə yeni güc mərkəzi yaradılmış, 1,2 km uzunluğunda 0,4 kV-luq SİP kabel h/x çəkilmiş, abonentlər yeni çəkilmiş SİP kabel h/x-nin üzərinə köçürülmüşdür.
- ❖ Rayonun Balçılı kəndində 73 abonent yeni çəkilmiş SİP kabel h/x-nin üzərinə köçürülmüşdür.
- ❖ Əhalinin elektrik enerjisinə olan tələbatının yaxşılaşdırılması üçün şəhərin S.Musayev küçəsində 160 kVA gücündə yeni güc mərkəzi yaradılmışdır.
- ❖ Rayonun Rüstəmli kəndində əhalinin elektrik enerjisinə olan tələbatının yaxşılaşdırılması üçün 1 ədəd 160 kVA gücündə yeni güc mərkəzi yaradılmışdır.
- ❖ Yevlax Elektrik Şəbəkəsinin balansında olan 10 kV-luq III-Kənd h/x-nin meşə zolağından keçən hissəsinin kənara çıxarılması üçün 59 ədəd 10 kV-luq metal dayaq quraşdırılmış, 5,0 km uzunluğunda AS-50 markalı naqil çəkilmiş, işlər davam etdirilir.
- ❖ Rayonun Nərimanabad kəndində yeni salınmış yaşayış evlərinin enerji təchizatının yaxşılaşdırılması üçün 0,4 kV-luq EVX-nin çəkilişinə başlanılmış, işlər davam etdirilir.
- ❖ Rayonun Hacımahmudlu, Kolanı, Kövər kəndlərində 0,4 kV-luq EVX-də 12 ədəd yararsız ağac dayaqlar dəmir beton dayaqlarla əvəz olunmuşdur.
- ❖ 10 kV-luq II-Kənd h/x-də 3 ədəd zədəli ağac dayaq yeni metal dayaqlarla əvəz olunmuşdur.
- ❖ Əhalinin və iqtisadiyyatın ayrı-ayrı sahələrinin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması sahəsində məqsədyönlü işlər davam etdirilir.

**Qaz təchizatı**

- ❖ Yevlax rayonunun ərazisi 5 Qazpaylayıcı stansiyadan təbii qazla qidalanır.
- ❖ 2023-cü il ərzində “Təmiz Qaz” xidməti tərəfindən 6172 qaz sızmaları aşkar edilmiş bunlardan 6063 qaz sızmalarının qarşısı alınmışdır.
- ❖ Əhali abonentlərinin qaz təchizatının yaxşılaşdırılması məqsədilə daxili imkanlar hesabına 9582 p/m müxtəlif diametrli polad boru ilə qaz xətləri çəkilmişdir. 665-ədəd d-20 mm və d-15 mm-lik qaz kranları əvəzlənib, 77-ədəd fərdi qaz tənzimləyici quraşdırılıb, 1994-ədəd xidmət sahəsi tərəfindən aşkar olunmuş sızmaların ləğvi işi aparılıb, 3340 p/m polad boruların rənglənməsi işləri aparılıb.
- ❖ Bundan əlavə rayon ərazisində 4 müharibə veteranı, 5 qazi və 8 şəhid ailəsinin müraciətləri əsasında ödənişsiz olaraq fərdi qazlaşma, xəttin yerinin dəyişdirilməsi və küçə qaz xəttinin çəkilməsi işləri aparılmışdır. Şəhərin Nizami prospektində ZOO mağazanın arxa hissəsi qaz xətlərinin yeraltı hissələri şəhərdə aparılan abadlıq işləri ilə əlaqədar yenidən çəkilmiş, Duzdağ qəsəbəsində istismarı bitmiş qaz boruları demontaj edilərək anbara təhvil verilmişdir, əvəzində yeni borularla xətlər quraşdırılması işləri aparılır. Nərimanov küçəsində daşıyıçı d-159 mm qaz xətti yeni çəkilmiş qaz borularıyla əvəzlənmişdir. Qoyunbinəsi kəndində qaz xəttlərinin əsaslı yenidən quraşdırma işləri aparılmış, Xəqani küçəsi, F.İsayev küçəsi, Əcəmi küçəsi, N.Nərimanov küçəsi,

Hacımahmudlu kəndi, Qoyunbinəsi kəndində və şəhərin Bakı küçəsində qaz xətləri yeni qaz borularıyla əvəzlənmişdir. Nemətabad kəndində qaz xəttlərinin əsaslı yenidən quraşdırma işləri aparılmış, Q.B.Zakir küçəsi, Zərdabi küçəsi, M.Hüseynzadə küçəsi, Şəki Tayı yaşayış sahəsi, N.Nərimanov küçəsində daşıyıcı d-159 mm qaz xətləri yenilənmişdir. Qaz təchizatının yaxşılaşdırılması məqsədi olə Aran-1 qəsəbəsinə daşıyıcı kəmərinin üzərində 1 ədəd müasir tələblərə uyğun SQTM tipli qaz tənzimləyici, C.Cabbarlı küçəsi, Nemətabad kəndində daşıyıcı kəmərinin üzərində müasir tələblərə uyğun ŞQTM tipli qaz tənzimləyicilər, digər ünvanlarda 44 ədəd müxtəlif diametrli siyirtmələr quraşdırılmışdır.

- 2023-ci ilinin yekunlarına görə 1102 abonentin qaz sayğacları yeni sayğaclarla əvəzlənmişdir. Bundan əlavə 6455 ədəd sayğaclarda yaranmış qaz sızmaları ləğv edilmişdir. Fərdi qaydada 269 abonentə layihə əsasında yeni qaz xətləri çəkilərək qazın verilişi təmin olunmuşdur. 88 ədəd mexaniki sayğaclar İTRON tipli sayğaclarla əvəz olunmuşdur.
- Hazırda Yevlax rayonunda qaz təchizatının yaxşılaşdırılması sahəsində görülmüş işlər davam etdirilir.

**Su təchizatı**

- 2023-cü il ərzində Yevlax Sukanal sahəsi tərəfindən şəhərin su və kanalizasiya şəbəkələrində təmir işləri davam etdirilmişdir.
- Tikintisi yekunlaşmaq üzrə olan sutəmizləyici qurğunun nasosları vasitəsilə şəhərə su verilməsinə başlanılmışdır. Kür nasos stansiyasından suyu Dəmiryolu vağzalı yanındakı məhəllədaxili su nasos stansiyasına, habelə Çənlibel yaşayış massivinə nəql edən su xəttinin üzərində yeni D-320-50 markalı nasos və 75 kVt elektrik mühərriki quraşdırılmışdır. Malbinəsi su hövzəsində 2 ədəd subartezian quyusunun EDN 10-65-110 m markalı elektronasosu əsaslı təmir edilmiş, 2 ədəd subartezian quyusunda yeni elektronasoslar quraşdırılmışdır.
- Bundan əlavə şəhərin Q.Quliyev küçəsində yerləşən subartezian quyusunun EDN 6-6,5-110 m markalı elektronasosu dəyişdirilmişdir. “Sahil” su nasos stansiyasında 8K-12 markalı nasos əsaslı təmir edilmişdir. Elçin Ağayev küçəsində uzunluğu 35 metr, Qaçaq Nəbi küçəsində 18 metr su xətti dəyişdirilmişdir. Kür nasos stansiyasından suyu şəhərə nəql edən 325 mm və 530 mm magistral su xətlərində 12 hissədə təmir işləri aparılmışdır.
- Malbinəsi-Yevlax birinci və ikinci magistral su xətlərində 7 yerdə baş vermiş qəzalar aradan qaldırılmışdır. Q.Quliyev 9 ünvanında yerləşən Şəhid ailələri və Qarabağ Əlilləri üçün tikilmiş binanın məhəllədaxili su nasos qurğusunda su xəttinin 8 metrlik hissəsi dəyişdirilmiş, su çənindən kanalizasiya baxış quyusuna 63 mm polietilen boru ilə 25 metr təxliyyə xətti çəkilmişdir.
- C.Mustafayev 106 və 106A ünvanlarında su xəttinin 7 metrlik hissəsi 63 mm polietilen boru ilə dəyişdirilmişdir.
- Ümumilikdə il ərzində su xətlərində baş vermiş qəzaların aradan qaldırılması üçün 953 iş əmri açılmış, bu iş əmrlərinin 99%-i icra edilmişdir.
- İl ərzində kanalizasiya nasos stansiyalarında cari və əsaslı təmir işləri aparılmışdır.
- 1 saylı Kanalizasiya nasos stansiyasında SD160/45 və SD250/22,5 markalı nasoslar əsaslı təmir edilmiş, 2 ədəd 55 kVt elektrik mühərriki quraşdırılmışdır. Elektrik mühərriklərinə uzunluğu 60 metr yeni kabellər çəkilmişdir. Sıradan çıxmış drenaj nasosunun əvəzinə yeni dalğıc tipli elektronasos quraşdırılmışdır. 1 ədəd 50 mm, 1 ədəd 150 mm siyirtmə yeniləri ilə əvəz edilmişdir. Elektrik qidalanma lövhələrində əsaslı təmir işləri aparılmışdır.

- 2 saylı Kanalizasiya nasos stansiyasında SD160/45 markalı nasos əsaslı təmir edilmiş, sıradan çıxmış 45 kVt elektrik mühərrikinin əvəzinə 55 kVt elektrik mühərriki quraşdırılmışdır. Həmin mühərrikə uzunluğu 25 metr yeni kabel çəkilmişdir. 100 mm siyirtmə yenisi ilə dəyişdirilmişdir.

- 3 saylı Kanalizasiya nasos stansiyasında SD250/22,5 markalı nasos əsaslı təmir edilmiş, yeni SD450/22,5 markalı və 75 kVt elektrik mühərriki quraşdırılmışdır. Hər iki nasosun əks-klapanları təmir edilmiş, çirkab su anbarı təmizlənmişdir.

- Nizami prospektində uzunluğu 450 metr, diametri 400 mm borularla kanalizasiya xətti dəyişdirilmişdir. 9 ədəd yeni kanalizasiya baxış quyusu tikilmişdir. Ətrafdakı yaşayış binalarının kanalizasiya xətləri uzunluğu 130 metr, diametri 200 mm olan borularla dəyişdirilmişdir. Şəhərin Qarxunlu Əşrəfbəy küçəsində qəzalı vəziyyətdə olan kanalizasiya xəttinin əvəzinə 300 mm diametrli polietilen borularla 98 metr yeni kanalizasiya xətti çəkilmiş, 2 ədəd yeni kanalizasiya baxış quyusu tikilmişdir.

- 1 saylı Kanalizasiya nasos stansiyasının H.Aslanov küçəsindən keçən 300 mm diametrli təzyiqli kanalizasiya xəttinin 20 metrlik hissəsi dəyişdirilmişdir. 2 saylı Kanalizasiya nasos stansiyasının M.Ə.Rəsulzadə və H.Əliyev prospektindən keçən 300 mm diametrli təzyiqli kanalizasiya xəttinin 12 metrlik hissəsi dəyişdirilmişdir.

- Ailə Sağlamlıq Mərkəzinə 110 mm polietilen borularla 96 metr yeni kanalizasiya xətti çəkilmişdir. Keçmiş məcburi köçkünlər üçün salınmış qəsəbədə 200 mm diametrli borularla kanalizasiya xəttinin 18 metrlik hissəsi dəyişdirilmişdir.

- Şəhərin H.Əliyev prospekti 6;8;10 saylı, Q.Quliyev 1b,2b, 14 saylı, Nizami prospekti 39 saylı, 31-ci məhəllə 4;9;10;11 saylı, Füzuli küçəsi 23 saylı, H.Əliyev prospekti 51 saylı, 26 və 27 saylı Dəmir yol binalarının, ümumilikdə 15 binanın zirzəmilərində kanalizasiya xətləri dəyişdirilmiş, əsaslı təmir işləri aparılmışdır.

- İl ərzində ümumilikdə 41 kanalizasiya baxış quyusu bərpa edilmişdir. İl ərzində kanalizasiya xətlərində qəzalarla əlaqədar 1527 iş əmri açılmış, iş əmrlərinin 100%-i icra edilmişdir.

- Yevlax Sukanal sahəsinin Modul tipli sutəmizləyici qurğularında da əsaslı təmir işləri aparılmışdır.

- Quşçu kəndində su xəttinin 24 metrlik hissəsi 32 mm polietilen boru ilə dəyişdirilmişdir. Səmədabad və Qaroğlan kəndlərində dalğıc nasoslar, İsmayılabad kəndində filtr nasosu dəyişdirilmiş, elektrik mühafizə lövhələrində əsaslı təmir işləri aparılmışdır. Cırdaxan, Yuxarı Salamabad, Yenicə və Aşağı Bucaq kəndlərində sutəmizləyici qurğulara 4 ədəd yeni elektronasos quraşdırılmışdır.

- Görülmüş işlər davan etdirilir.

**Rabitə xidmətlərinin yaxşılaşdırılması**

- 2023-cü il ərzində "Aztelekom" MMC-nin Mərkəzi Aran Regional Filialının Yevlax şöbəsi üzrə aşagıda adları qeyd olunan işlər görülmüşdür.

- İlk növbədə Qarabağ, Vətən müharibəsi iştirakçıları, şəhid ailələri və qazilərin müraciətlərinə növbədənkənar baxılmış, telefon xətləri zədəli olanların xətləri bərpa edilmişdir. Hal-hazırda 125 şəhid və qazi ailələri güzəştlə yeni GPON optik internet lahiyəsinə aid olan yüksək sürətli internet və telefon xidmətlərindən istifadə edir.

- Xətt İstismarı Sektorunda, kənd və şəhər rabitə hava xətlərində mövsümə hazırlıq planına uyğun profilaktika işləri aparılmış, o cümlədən zədəli kabellər yenisi ilə əvəz edilmişdir. Heydər Əliyev və Nizami prospektlərində, Yeni Yevlax, Ü.Hacıbəyov, Xəqani küçələrində, Xaldan, Aran qəsəbələrində, Kövər, Qaramanlı və Tanrıqulular kəndlərində

əsaslı təmir işləri görülmüşdür. Ümumilikdə Xətt İstismarı Sektorunda 3280 m hava rabitə xətləri texniki normaya gətirilmiş, 17 ədəd ağac dirək yeniləri ilə əvəzlənmişdir.

- Yevlax şəhərində rabitə xidmətlərinin yüksək keyfiyyətliyi və dayanıqlığı üçün GPON (optik xidmət) layihəsinin icrası ilə bağlı surətli, həmçinin keyfiyyətli işlər görülməkdədir. Yevlax şəhəri Nizami prospekti, Füzuli, R.Balakişiyev, Ü.Hacıbəyov, C.Kərimov, Nəsimi, E.Məmmədov, H.Aslanov, Z.Tağıyev, M.Ə.Sabir, Xəqani, S.Əsgərova, A.Məmmədov, Q.Quliyev, C.Cabbarlı, S.Vurğun küçələri və 31-ci məhəllə ərazisi, Yevlax rayonu Hacıselli, Marzılı, Havarlı, Salamabad, Y.Qarxun, Malbinəsi, Qoyunbinəsi, Kolanı, Rüstəmli, Yəldili kəndləri və Aran qəsəbəsi artıq GPON lahiyəsindən bəhrələnirlər. Kövər, Qarammədli, Qaramanlı, Nəmərli, Hacımahmudlu kəndləri montaj işlərinə hazırdırlar. Hal-hazırda Tanrıqulular və Salahlı kəndlərində dirəklər basdırılır. 2023-cü il ərzində Yevlax rayonunda ADSL xətti üzrə 51 telefon, 673 internet, 5347 abunəçi isə GPON lahiyəsi üzrə telefon və internet xətlərinə qoşulmuşdur.

## TƏHSİL SAHƏSİ ÜZRƏ

- Yevlax rayonunda 56 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir. Həmin müəssisələrdən 42-si tam orta, 8-i ümumi orta, 6-sı ibtidai məktəbdir. Ağqıraq kənd ibtidai məktəbi 2022-ci ilin sentyabr ayından Balçılı kənd tam orta məktəbin tabeliyində fəaliyyət göstərir.

- Dövlət əyani ümumi təhsil müəssisələrində şagirdlərin sayı 15897 nəfər olmuşdur. O cümlədən ibtidai təhsil səviyyəsi üzrə 5782, ümumi orta təhsil səviyyəsi üzrə 7934, tam orta təhsil səviyyəsi üzrə 2181 nəfər olmuşdur. Həmin şagirdlərin təlim-tərbiyəsi ilə 2041 müəllim məşğul olur.

- Dövlət məktəbəqədər təhsil müəssisələrində uşaqların sayı 1272 nəfər olmuşdur.O cümlədən şəhər üzrə 545, kənd üzrə 727 nəfər olmuşdur.

- 2023-cü ilin sentyabr ayının 15-də Yevlax rayon A.Əzizov adına Xanabad kənd tam orta məktəbi yenidən tikilərək müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Həmçinin Havarlı, Varvara, Rüstəmli kənd tam orta, Bucaq və Xaldan kənd ümumi məktəbində cari təmir işləri aparılmışdır.

- 2023-cü ildə Elm və Təhsil Nazirliyi tərəfindən 1 müəllim “Qabaqcıl Təhsil İşçisi“ döş nişanı, 3 müəllim isə “Fəxri Fərman”la təltif edilmişlər.

## SƏHİYYƏ SAHƏSİ ÜZRƏ

- 2023-cü ildə Yevlax rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsində 137 həkim 286 orta tibb işçisi fəaliyyət göstərmişdir. 2 xəstəxana 9 ambulator-poliklinika və ailə sağlamlıq mərkəzləri fəaliyyət göstərir və əhalinin 10 min nəfərinə orta hesabla 11 həkim, 22,2 orta tibb işçisi düşür.

- 2023-cü il ərzində rayon üzrə ambulator tibb müəssisələrinə 461876 müraciət daxil olmuşdur.

- 2023-ci ildə Təcili Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına müraciət edənlərin sayı 14050 nəfər olmuşdur.

- “Yevlax rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsində 2023-cü il ərzində 843 cərrahi əməliyyat baş tutmuşdur.

- 2023-cü il ərzində “Yevlax rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsində “Tibbi Göndərişlərə Nəzarət Komissiyası”nın rəyi əsasında özəl xəstəxanalara 2229, Dövlət xəstəxanalarına 2000, PHŞ-ə 462 nəfər xəstəyə müalicə üçün göndəriş verilmişdir. Xəstəxanada 586 uşaq doğulmuş, ana ölümü halı baş verməmişdir.

- 2023-cü il ərzində “Yevlax rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsinə 3904 xəstə qəbul olunmuşdur. Stasionarda ölənlərin sayı 42, evdə ölənlərin sayı 611 nəfər olmuşdur.

## MƏDƏNİYYƏT SAHƏSİ ÜZRƏ

- 2023-cü ildə Yevlax rayonunda 33 klub, 45 kütləvi kitabxana və 2 muzey fəaliyyət göstərmişdir.
- Kütləvi kitabxanalarda kitab fondu 165921 nüsxə olmuş və orta hesabla 22600 sakinə 147251 nüsxə kitab düşür.

## GƏNCLƏR VƏ İDMAN SAHƏSİ ÜZRƏ

- Rayon gəncləri arasında ideya-siyasi və fiziki tərbiyənin təşkili sahəsində Yevlax Şəhər Gənclər və İdman sektoru tərəfindən 2023-cü il ərzində idman sahəsi üzrə ümumi 31 tədbir keçirilib.
- Rayonda Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM), "Yevlax Gənclər Evi" Sosial Xidmətlər Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlər tərəfindən müxtəlif təlim və tədbirlərə min nəfərə yaxın gənc cəlb olunmuşdur.
- Rayonda olan idman qurğularının sayı 114, bədən tərbiyəsi ilə məşğul olanların sayı 3086 nəfər təşkil etmişdir.

## İCTİMAİ TƏŞKİLATLAR VƏ SİYASİ PARTİYALARLA İŞ SAHƏSİ ÜZRƏ

- Azərbaycan Respublikası Prezidentinin xalqımızın xoşbəxt rifahı naminə həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin yerlərdə təbliği, ölkə Prezidentinin nitqlərinin öyrənilməsi, fərman və sərəncamlarından irəli gələn vəzifələri, ölkənin ictimai-siyasi həyatında baş verən prosesləri ictimaiyyətin bütün təbəqələrinə daha dərindən və ardıcıl şəkildə çatdırılması məqsədilə Şəhər İcra Hakimiyyətinin rəsmi saytında və sosial şəbəkə hesablarında müntəzəm olaraq yazılar yerləşdirilir.
- 2023-cü ildə rayon ərazisində ictimai-siyasi vəziyyət sabit olmuşdur.
- Rayon ərazisində 11 siyasi partiya fəaliyyət göstərir. Yeni Azərbaycan Partiyasından başqa bu partiyalardan heç birinin qərargahı yoxdur.
- Rayon ərazisində dini duruma nəzarət "Dini etiqat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu"na müvafiq olaraq tənzimlənmişdir.
- Hazırda Yevlax şəhərində, qəsəbə və kəndlərdə 22 məscid var ki, həmin məscidlərdən 16-sı fəaliyyət göstərir.
- Ötən müddət ərzində rayon ərazisində dini və milli zəmində heç bir münaqişə baş verməmişdir.
- Rayon ərazisində heç bir qeyri–islam dini icması, dini ayrı–seçkiliyi təbliğ və təşviq edən qruplar yoxdur. Qeyri–hökumət təşkilatlarının və siyasi partiyaların dini məsələlərə müdaxilə halları müəyyən edilməmiş, xarici missioner təşkilatlarının və nümayəndələrinin fəaliyyətinə yol verilməmişdir.

## YAŞAYIŞ SAHƏSİ İLƏ TƏMİN OLUNMA

- 2002-18.12.2023-cü illər ərzində əhalinin yaşayış sahəsi ilə təmin olunması məqsədi ilə Yevlax rayonu ərazisində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 167 mənzil və 71 fərdi yaşayış evləri tikilib istifadəyə verilmişdir.

- İctimai yaşayış binaları şəhər ərazisində, fərdi yaşayış evlərinin 52-i kəndlərdə, 19-u isə şəhərdə tikilmişdir. Həmin yaşayış sahələrinin 115-i Qarabağ müharibəsi əlillərinə, 5-i vəfat etmiş Qarabağ müharibəsi əlillərinin arvadlarına, 109-u şəhid ailələrinə, 1-i 20 Yanvar əlilinə, 1-i Qarabağ müharibəsi veteranına, 4-ü hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslərə, 2-si Çernobil əlilinə və 1-i ümumi səbəbdən I qrup əlilə verilmişdir.

- Yevlax rayonu üzrə 18.12.2023-cü il tarixə 2105 nəfər ailə üzvü olan 519 ailə mənzil şəraitini yaxşılaşdırmaq üçün növbəyə alınmışdır. Onlardan 71-i şəhid ailələri, 111-i Qarabağ və Vətən müharibəsi əlilləri, 40-ı həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular, 101-i əlillər, sağlamlıq imkanları məhdud uşaqların ailələri və I qrup gözdən əlillər, 19-u Çernobıl AES-də qəzanın ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmişlər, 139-u Qarabağ və Vətən müharibəsi veteranı, 1-i Əfqanıstan müharibəsi əlili, 37-i isə hərbi xidməti yerinə yetirərkən əlil olmuş şəxslərdir.

- Yevlax Şəhər İcra Hakimiyyətinin sərəncamında boş mənzillər olmadığı üçün mənzillə bağlı müraciətlərin təmin olunması imkanı xaricindədir. Hazırda Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzillə təmin edilməsi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir.

## HÜQUQ MÜHAFİZƏ, QEYDİYYAT VƏ HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ SAHƏSİNDƏ

- 2023-cü ildə hüquq mühafizə orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, onun profilaktikası və qanunçuluğun möhkəmləndirilməsi istiqamətində bir sıra işlər görülmüş, bu məqsədlə kompleks əməli tədbirlər həyata keçirilmişdir.

- 2023-cü il ərzində Yevlax rayonu ərazisində 395 cinayət hadisəsi qeydə alınmış, həyata keçirilmiş əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində 354 cinayət hadisəsinin açılması təmin olunmuşdur. 16 cinayət hadisəsi isə bağlı qalmışdır. 2023-cü il ərzində ümumi cinayətlərin açılması 95.7 % təmin edilmişdir.

- Baş vermiş cinayətlərin 86-ı ağır cinayətlər təşkil etmişdir, 8 cinayət bağlı qalmışdır. Cinayətlərin açılması 91.2 % təmin edilmişdir.

- Hesabat dövründə qeyri-aşkar şəraitdə baş vermiş 202 cinayətin 178-i açılmış, 12 cinayət hadisəsi bağlı qalmışdır. Cinayətlərin açılması 93.7 % təmin edilmişdir.

- Şəxsiyyət əleyhinə olan cinayətlərin sayı 62 fakt olmuş, açılması 100 % təmin edilmişdir. Mülkiyyət əleyhinə 114 cinayət hadisəsi baş vermişdir, açılması 92.3 % təmin edilmişdir. 2023-cü il ərzində baş vermiş mülkiyyət əleyhinə 114 cinayətin 36-ı oğurluq faktı müəyyən edilmişdir. Cinayətlərin açılması 89.2 % təmin edilmişdir.

- Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri ilə 160 fakt aşkar edilmiş onlardan 61 satış faktı olmuşdur ki, qeyri-reqal dövriyyədən 19 kq 628,342 qram narkotik vasitə çıxarılmışdır.

- 2023-cü il ərzində 1016 doğum faktı, 730 ölüm faktı qeydə alınmışdır. 150 nikah bağlanmış, 263 nikahın pozulması qeydə alınmış, əvvəlki ilə nisbətən boşanmaların sayı

60 fakt artmışdır. Yevlax rayon qeydiyyat şöbəsi, Şəhər İcra Hakimiyyəti Başçısının sahə, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri, eləcə də ağsaqqallar, ziyalılar tərəfindən boşanma hallarının azalması üçün yerlərdə əhali arasında, xüsusən gənc ailələrlə mütəmadi olaraq maarifləndirmə tədbirlərinə diqqət artırılmalıdır.

- ❖ 2023-ci il ərzində Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Yevlax rayon şöbəsi tərəfindən 620 nəfər gənc həqiqi hərbi xidmətə göndərilmiş, gənclərin hərbi xidmətə göndərilməsi tapşırığına artıqlaması ilə əməl olunmuşdur.

## SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ŞÖBƏSİ ÜZRƏ

- ❖ Hesabat ilində Şəhər İcra Hakimiyyətində, idarə, müəssisə və təşkilatlarda vətəndaşların qəbulu, onların təklifi, ərizə və şikayətlərinə baxılmasına diqqət artırılmışdır. Azərbaycan Respublikası Prezidenti Admnistrasiyasının tövsiyələrinə uyğun olaraq əhalinin yerlərdə qəbuluna xüsusi diqqət yetirilir.
- ❖ 2023-cü ildə Şəhər İcra Hakimiyyətində 4703 nəfər vətəndaş qəbul edilmişdir ki, onlardan 3253 nəfəri Şəhər İcra Hakimiyyəti Başçısı tərəfindən qəbul edilmişdir.
- ❖ Vətəndaşlar tərəfindən qaldırılmış məsələlərin əksəriyyəti yerlərindəcə həll edilmiş, digər müraciətlərin icrası isə nəzarətə götürülərək həll olunmuşdur. Şəhər İcra Hakimiyyətində “qaynar xətt” yaradılmışdır.
- ❖ 2023-cü ildə dövlət orqanlarından və digər qurumlardan Şəhər İcra Hakimiyyətinə 1250, o cümlədən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 284, Milli Məclisdən 17, Nazirlər Kabinetindən 30, digər qurumlardan isə 63 müraciət daxil olmuşdur.
- ❖ Vətəndaşlardan birbaşa Şəhər İcra Hakimiyyətinə 856, elektron poçt ünvanına 51 müraciət daxil olmuşdur.
- ❖ Bununla yanaşı bir sıra hallarda vətəndaşların ərizə və şikayətlərinə diqqətlə yanaşılmır, onlara səthi cavablar verilir. Ona görə də bəzi hallarda təkrar müraciətlər daxil olur.
- ❖ Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının bütün şöbələri, xüsusi ilə Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi ərizə və şikayətlərə, müraciətlərə vaxtında baxılmasını və qaldırılan məsələlərin ətraflı təhlil olunmasını təmin etməlidir.